**Azərbaycan Respublikası Hökuməti ilə**

**Türkmənistan Hökuməti arasında**

**dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında**

**Saziş**

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti,

bərabərlik, qarşılıqlı mənfəət və qarşılıqlı yardım prinsiplərinə uyğun olaraq dəniz ticarət gəmiçiliyi sahəsində iki dövlət arasında əlaqələrin möhkəmləndirilməsini və inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Bu Sazişin məqsədləri aşağıdakılardır:

hər iki dövlət arasında dəniz ticarət gəmiçiliyi sahəsində əlaqələrin tənzimlənməsi və inkişaf etdirilməsi;

gəmiçilikdə effektiv əlaqələndirilmənin təmin edilməsi;

hər iki dövlət arasında ticarət və iqtisadi əlaqələrin inkişafına köməklik göstərilməsi.

**Maddə 2**

Bu Sazişin məqsədləri üçün istifadə edilən anlayışlar aşağıdakıları ifadə edir:

"Səlahiyyətli Orqanlar":

Azərbaycan Respublikasında – Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası;

Türkmənistanda – Türkmənistanın Dövlət Dəniz və Çay Nəqliyyatı Xidməti;

"Tərəfin gəmisi" –Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq gəmi reyestrində və ya digər müvafiq reyestrdə qeydiyyatdan keçmiş və həmin dövlətin bayrağı altında üzən, aşağıdakılar istisna olmaqla, hər hansı gəmini nəzərdə tutur:

hərbi gəmilər və qeyri-kommersiya məqsədləri üçün istismar edilən digər dövlət gəmiləri;

hidroqrafik, okeanoqrafik və elmi tədqiqatlar üçün istismar edilən gəmilər;

balıqçı və təftiş gəmiləri;

idman və gezinti gəmiləri;

Hər bir Tərəfin dövlətinin dəniz limanları arasında kabotaj və daxili sularında gəmiçilik üçün nəzərdə tutulan gəmilər;